# TÜRKDİLLİ ÖLKƏLƏRDƏ İXRAC SƏBƏTİNİN MƏHDUD MÜXTƏLİFLİYİNİN İM İNDEKSİ ƏSASINDA TƏHLİLİ

Pərvin VERDİYEVA*

**Xülasə:** Müasir dünyamızda iqtisadi inkişaf eyni çeşiddə əmtəə və xidmətlərin artan kəmiyyətlə istehsalı ilə deyil, davamlı təkmilləşmə prosesi əsasında daha mürəkkəb və keyfiyyətli məhsul istehsalı ilə xarakterizə olunan prosesə çevrilmişdir. Bazarların mürəkkəblik dərəcəsi artdıqca, iqtisadi təfəkkür paradiqmasının da dəyişdirilməsinə ehtiyac yaranır. Ölkənin ixrac səbətinin quruluşu və müxtəlifliyi iqtisadi inkişaf səviyyəsini əks etdirən mühüm göstəricilərdən hesab olunur. Harvard universitetinin professorları D.Rodrik, J.Hvanq və R.Hausman tərəfindən 2005 - ci ildən etibarən ölkələrin iqtisadi inkişaf səviyyəsini, ixrac səbətinin mürəkkəbliyi əsasında ölçə bilən "İqtisadi Mürəkkəblik İndeksi (İMİ)" irəli sürülmüşdür. İMİ ölkənin rəqabət qabiliyyəti və ixrac imkanlarının keyfiyyətini ölçməyə yönəlmiş müasir yanaşma kimi davamlı və dayanıqlı iqtisadi inkişaf üçün ixracın şaxələndirilməsini və innovasiyaları təşviq edən siyasətlərin həyata keçirilməsini dəstəkləyir. Bu məqalədə eyni dili və mədəni tarixi paylaşan Türkdilli ölkələrin iqtisadi inkişaf və qlobal bazarlarda qarşılıqlı əlaqələrinin qiymətləndirilməsi məqsədilə ixrac səbətinin müxtəlifliyi araşdırılmışdır. Bu məqsədlə hər bir ölkənin ixrac səbətinin şaxələnmə dərəcəsini əks etdirən İM indeksindən istifadə edilmişdir. Ötən illər üzrə Türkdilli ölkələrin İM indeksinin təhlili əsasında müəyyən olunmuşdur ki, ixrac səbətində bilik və bacarıqlara əsaslanan məhsul və xidmətlərin üstünlük təşkil etdiyi ölkələr, daha dar və daha az çeşiddə məhsullar ixrac edən ölkələrə nisbətən daha rəqabətli və dayanıqlı hesab olunur.

***Açar Sözlər:*** *Türkdilli Ölkələr, İMİ, İxrac Səbəti, Məhdud Müxtəliflik, İqtisadi İnkişaf.*

**Analysis of the Diversity of Export Basket in Turkish – Speaking Countries Based on EC Index**

**Abstract:** In our modern world, economic development has become a process characterized not by the production of the same variety of goods and services in increasing quantities, but by the production of more complex and quality products based on the process of continuous improvement. As the degree of complexity of markets increases, there is a need to change the paradigm of economic thinking. The structure and diversity of the country's export basket is considered one of the important indicators reflecting the level of economic development. Harvard University professors D. Rodrik, J. Hwang and R. Hausman have proposed "Economic Complexity Index (ECI)" since 2005, which can measure the level of economic development of countries based on the complexity of the export basket. IMI supports the implementation of policies that promote export diversification and innovation for sustainable and sustainable economic development as a modern approach aimed at measuring the country's competitiveness and the quality of export opportunities. In this article, the diversity of the export basket of the Turkic-speaking countries that share the same language and cultural history was examined in order to evaluate their economic development and mutual relations in the global markets. For this purpose, the IM index, which reflects the degree of diversification of each country's export basket, was used. Based on the analysis of the IP index of Turkic-speaking countries for the past years, it was determined that the countries whose export basket is dominated by products and services based on knowledge and skills are considered more competitive and stable than the countries that export a narrower and smaller variety of products.

***Key Words:*** *Turkic-Speaking Countries, IMI, Export Basket, Limited Diversity, Economic Development*

## Giriş

Ölkənin iqtisadi inkişafına təsir göstərən əsas faktorlardan biri ixrac səbəti və onun müxtəlifliyidir. İxrac rəqabəti təşviq etməklə, ölkədə innovativ əmtəə və xidmətlərin istehsalını stimullaşdırır, həmçinin daxili tələbatın ödənilməsinə və ölkənin dünya bazarına çıxış imkanlarının əldə olunmasına imkan yaradır. İxrac və iqtisadi inkişaf arasında əlaqə bir çox iqtisadçıların tədqiqat obyekti olmuşdur. "Müqayisəli üstünlük" nəzəriyyəsinin müəllifi olan David Rikardo ölkələrin hansı məhsul istehsalında müqayisəli üstünlüyə malikdilərsə, o istiqamətdə ixtisaslaşmasının və bu məhsulların digər ölkələrlə ticarətinin tərəfdarı idi. Bela Balassa isə uzun illər apardığı tədqiqatlar nəticəsində ixrac səbətinin diversifikasiya dərəcəsi ilə iqtisadi artım arasında pozitiv əlaqənin olduğunu müəyyənləşdirmişdir. B.Balassa hər ölkənin ixrac səbətindəki məhsulların müxtəlifliyi əsasında "Balassa indeksi" hesablamışdır. Hesablamanın nəticəsinə görə yüksək indeksə malik, yəni ixrac səbətinin müxtəlifliyi yüksək olan ölkələr xarici iqtisadi təhdidlərə qarşı daha dayanıqlı və yüksək iqtisadi inkişafa malik olan ölkələrdir. Aşağı indeksli ölkələrə isə məhdud məhsul istehsalında ixtisaslaşan, xarici iqtisadi

* Bakı Avrasiya Universiteti, "İqtisadiyyat" kafedrasının dosenti. e-mail: v.pervin@yahoo.com

DOI :10.30546/100981.2024.032

təhdidlərə daha həssas olan və qeyri sabit artım dinamikasına malik ölkələr aid olmuşdur (Balassa, 1978: 189 ).

2005-ci ildən sonra Harvard universitetinin professorları D.Rodrik, J.Hvanq və R.Hausman özlərindən öncə aparılan tədqiqatlara, xüsusilə də B.Balassa nəzəriyyəsinə əsaslanmaqla ixrac səbətinin müxtəlifliyi ilə iqtisadi artım arasındakı əlaqəni müəyyənləşdirmək üçün fərqli metodologiya təklif etdilər. Onların yanaşmasına görə əsas olan ixracın kəmiyyəti deyil, keyfiyyəti və müxtəlifliyidir. "İqtisadi Mürəkkəblik" nəzəriyyəsinə görə ixrac səbətində yüksək çeşiddə, fərqli məhsullar üstünlük təşkil edən ölkələr beynəlxalq bazarlarda rəqabət üstünlüyünə malik olmaqla, davamlı iqtisadi artıma nail olurlar. Müəlliflər ixrac səbətindəki məhsulların müxtəlifliyi və eyni məhsulu ixrac edən ölkələrin sayı əsasında İqtisadi Mürəkkəblik İndeksini (İMİ) hesablamaqla, yeni metodologiya təklif etdilər (Hausman and others, 2007).

## 1. Dünya ölkələrinin İMİ sıralamasının təhlili

"İqtisadi Mürəkkəblik" nəzəriyyəsinə görə ölkədə həyata keçirilən iqtisadi siyasətin əsasını yalnız ixracın deyil, hətta ondan da önəmli olan ixrac səbətinin mürəkkəbliyinin təşviqi olmalıdır. Ölkə daxilində həyata keçirilən iqtisadi diversifikasiya siyasəti, ixrac səbətinin diversifikasiyası ilə paralel aparılsa nəticə daha effektiv olar. Müəlliflər, həmçinin onu qeyd edir ki, ölkədə ticari münasibətlər liberallaşdırılmalı və xarici ticarətdəki maneələr aradan qaldırılmalıdır (Hausman and others, 2007). Ölkədə mürəkkəb məhsul istehsalı üçün maliyyə imkanlarının elm, təhsil və innovasiyaya, infrastruktur quruculuğuna yönəldilməsi müsbət nəticələr verə bilər.

| Ölkələr | İMİ | Yerləşmə sırası |
|---|---|---|
| Yaponiya | 2.26 | 1 |
| İsveçrə | 2.14 | 2 |
| Cənubi Koreya | 2.04 | 3 |
| Almaniya | 1.94 | 4 |
| Sinqapur | 1.83 | 5 |
| Çexiya | 1.75 | 6 |
| Amerika | 1.40 | 10 |
| Rusiya | 0.19 | 53 |

**Cədvəl 1.** 2021 –ci ildə dünya ölkələrinin İMİ reytinqi (www.atlas.cid.harvard.edu)

Cədvəl 1. məlumatlarına əsasən ilk sıralarda qərarlaşan ölkələr beynəlxalq ticarətdə əhəmiyyətli mövqeyə malik olan və dünya bazarına rəqabətqabiliyyətli, keyfiyyətli, çoxçeşidli və müxtəlif əmtəə və xidmətlər ixrac edən ölkələrdir. Yüksək ixrac mürəkkəbliyinə malik ölkələrin əsas ortaq cəhətlərinə aşağıdakıları aid edə bilərik:

- Onların əsas ortaq cəhəti inkişaf etmiş sənaye bazalarının olmasıdır. Belə bazanın olması mürəkkəb istehsal təcrübələri ilə yüksək əlavə dəyərə malik əmtəə və xidmətlərin istehsalına və ixracına imkan yaradır.
- İnkişaf etmiş infrastruktur bazalarının olması və davamlı olaraq infrastrukturun yenilənməsinə investisiya yatırılması istehsal imkanlarını genişləndirməklə səmərəli logistika və ticari əlaqələrin inkişafı və qlobal bazarlara çıxış imkanlarının artırılmasına imkan yaradır.
- Əlverişli biznes və investisiya mühitinin olması innovasiya və sahibkarlığı stimullaşdırmaqla, yeni texnologiya və bilik əsaslı məhsuların istehsalına təkan verir.
- Yüksək texniki təcrübə və xüsusi biliklərə sahib ixtisaslı kadrlarının olmasıdır. Bu cür kadr potensialı innovasiyaları idarə etmək və qabaqcıl texnologiyalarda yenilik etməklə istehsal olunan əmtəə və xidmətlərin iqtisadi mürəkkəbliyini artıra bilirlər.

Artıq uzun illərdir ki, Yaponiya İMİ sıralamasında ilk yerdə qərarlaşır. 2022-ci ildə ixracın həcmi 747 milyard dollara bərabər olan Yaponiyanın ixrac səbətində elektronika və robot texnikası, avtomobil texnologiyası, yüksək dəqiqlikli maşınlar, inteqrasiya edilmiş sxem

və s. kimi yüksək mürəkkəbliyə malik texnoloji məhsullar üstünlük təşkil edir (www.atlas.cid.harvard.edu). Qabaqcıl texnoloji imkanlara və innovasiya yönümlü iqtisadiyyata malik Yaponiya avtomobil sənayesi, yüksək texnologiyalı sənaye məhsulları, robot texnikası istehsalında dünya lideri hesab olunur. Qlobal bazarlarda rəqabət üstünlüyünə malik Yapon məhsulları öz keyfiyyəti, etibarlılığı və dəqiq mühəndisliyi seçilir. Bununla yanaşı, Yaponiyanın iqtisadi uğurunun arxasında yüksək inkişaf etmiş insan kapitalı, qabaqcıl istehsal imkanları və güclü ixrac potensialı dayanır. Bunların əsasında yüksək mürəkkəbliyə malik texnoloji məhsulların üstünlük təşkil etdiyi ixrac səbətinin yaranması Yaponiyanın qlobal dəyər zəncirinin əsas hissəsinə çevrilməsinə səbəb olmuşdur.

İMİ göstəricilərinə görə 5-ci sırada yerləşən Sinqapurun ixracyönümlü sənayeləşmə strategiyası iqtisadi inkişafının əsas hərəkətverici gücü olmuşdur (bax: cədvəl 1). İnnovasiyaya əsaslanan biznes subyektlərinə dövlət tərəfindən davamlı olaraq dəstəkləyici tədbirlərin həyata keçirilməsi, azad ticarət sazişləri şəbəkəsi ilə liberal ticarət rejiminin qorunması, yüksək bilik və bacarıqlara malik kadr potensialının olması Sinqapurun iqtisadi mürəkkəbliyini artıran faktorlardan hesab olunur. İxrac səbətində inteqrasiya edilmiş sxemlər, elektrik maşın və avadanlıqları, neft məhsulları, qaz turbinləri və s. kimi məhsulların üstünlük təşkil etdiyi Sinqapurun 2022-ci ildə ixracının həcmi 2021-ci ilə nisbətən 11.5 % artaraq, 870.81 milyard dollara bərabər olmuşdur (www.oec.world/en). Sinqapurun İMİ reytinqində ilk sıralarda olması onun əlverişli coğrafi mövqeyi, ixracyönümlü iqtisadiyyatı, güclü infrastruktur bazasının, əlverişli biznes və investisiya mühiti və rəqabət şəraitinin və ən əsası yüksək ixtisaslı kadr potensialının olması ilə birbaşa əlaqəlidir.

## 2.Türkdilli ölkələrdə İMİ sıralamasının təhlili

Türkdilli ölkələr yalnız dil, tarix, mədəniyyət və ənənələr baxımından deyil, həmçinin də iqtisadi xarakterlərinə görə də bir-biri ilə bağlı ölkələrdir. Bu ölkələr arasında geniş iqtisadi və ticari əlaqələr mövcuddur. 2018-ci ildə "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası" tərəfindən "Ticarət və investisiyanın təşviqi" sazişinin imzalanması Türkdilli ölkələr arasında ticarət əlaqələrinin genişlənməsinə və əlverişli biznes-investisiya mühitinin yaradılmasına, sosial-iqtisadi yüksəlişə və mədəni inkişafa əhəmiyyətli dərəcədə təsirli oldu.

| Ölkələr | İMİ | Yerləşmə sırası |
|---|---|---|
| Azərbaycan | -1.03 | 115 |
| Türkiyə | 0.61 | 40 |
| Qazaxıstan | -0.47 | 88 |
| Türkmənistan | -0.82 | 103 |
| Qırğızıstan | -0.11 | 65 |
| Özbəkistan | -0.17 | 72 |

**Cədvəl 2.** 2021 – ci ildə Türkdilli ölkələrin İMİ reytinqi (www.atlas.cid.harvard.edu)

Azərbaycan zəngin təbii resurs potensialına malik ölkələrdən hesab olunur. Bu potensialın mövcudluğu ölkəmizin iqtisadı inkişafında həlledici rol oynamışdır. Neft – qaz sektoru Azərbaycan iqtisadiyyatının əsas inkişaf dayağı hesab olunur. Müvəfəqiyyətli neft strategiyası iqtisadi və ticari münasibətlərin inkşafına təkan verməklə, ölkənin qlobal bazarın əsas neft – qaz ixracatçısı ölkəsinə çevrilməsinə səbəb oldu. 2022 – ci ildə Azərbaycanın ümumi ixracı 38.1 milyard dollara, idxalı isə 14.5 milyard dollara bərabər olmaqla, 23.6 milyard dollara bərabər mübət saldo yaranmışdır (www.oec.world/en).

| | 2018 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|
| **Mineral məhsullar** | 92 | 87.6 | 88.7 | 92.8 |
| **Kimya sənaye məhsulları** | 0.4 | 0.6 | 1.1 | 1.0 |
| **Diri heyvanlar və heyvan mənşəli məhsullar** | 0.1 | 0.1 | 0.1 | 0.1 |
| **Bitki mənşəli məhsullar** | 3.0 | 4.5 | 3.0 | 1.8 |
| **Hazır ərzaq məhsulları, alkoqollu və ya alkoqolsuz içkilər, sirkə, tütün** | 0.4 | 0.7 | 0.4 | 0.4 |
| **Mirvari, qiymətli və ya azqiymətli daşlar, qiymətli metallar və onlardan hazırlanan məmulatlar, bijuteriya, sikkələr** | 0.8 | 1.4 | 0.9 | 0.5 |
| **Plastmaslar və onlardan hazırlanan məmulatlar, kauçuk, rezin, onlardan hazırlanan məmulatlar** | 0.6 | 1.2 | 2.0 | 1.0 |
| **Maşınlar, mexanizmlər, elektrotexniki avadanlıqlar, onların hissələri** | 0.3 | 0.5 | 0.3 | 0.3 |
| **Az qiymətli metallar və onlardan hazırlanan məmulatlar** | 1.3 | 1.5 | 1.7 | 1.1 |

**Cədvəl 3.** Azərbaycanda ixracın əmtəə strukturu, ixracda xüsusi çəkisi, faizlə (Azərbaycanın xarici ticarəti, 2023: 71-76).

Cədvəl 3. məlumatlarının təhlili göstərir ki, ötən illər ərzində ixrac strukturunda mineral məhsullar ən yüksək xüsusi çəkiyə malik olmuşdur. Belə ki, 2018 - ci ildə mineral məhsullar ümumi ixracın 92 % - ni, 2020 - ci ildə 87.6 % - ni, 2021 - ci ildə 88.7 % - ni, 2020 - ci ildə isə 92.8 % - ni təşkil etmişdir. Bu onu göstərir ki, ixrac səbətində mineral məhsullar, xammal və materiallar, kənd təsərrüfatı məhsulları üstünlük təşkil etməklə, diversifikasiya səviyyəsi aşağı olmuşdur. İM indeksi sıralamasında ölkəmizin 115 – ci sırada yerləşməsi də, iqtisadi mürəkkəbliyin aşağı həddə olduğunu tədiq edir. Son 15 ildə Azərbaycanın ixrac səbətinə, adambaşına 560 dollar gəlir gətirən 5 yeni ixrac məhsulu əlavə olunmuşdur. Bu məhsullara peyk telekomunikasiya xidməti, polipropilen, sement, yod, pambıq mahlıcı aiddir (www.atlas.cid.harvard.edu).

Son illərdə ölkədə qeyri-neft sektorunun inkişafı istiqamətində aparılan məqsədyönlü siyasət və strategiyaların nəticəsi olaraq bir çox qeyri – neft sahələrində iqtisadi aktivlik müşahidə olunur. Bu aktivlik ixracın strukturunda da özünü göstərir. 2023 – cü ildə qeyri – neft məhsullarının ixracı ötən ilə nisbətən 9.8 % artaraq 3.3 milyard dollara bərabər olmuşdur. Bu məhsullara elektrik enerjisi, qızıl, pomidor, xurma, pambıq mahlıcı, meşə fındığı, alma, şaftalı, həmçinin metil spirti, polimerləşmədə ilkin formalı maddələr, karbamid, ilkin formalı polipropilen, ilkin formalı propilen sopolimerləri, polietilen kimi kimya sənayesi məhsullarını aid edə bilərik (İxrac İcmalı, 2024: 4, 12, 13 ). 2012 – ci ildən etibarən "Sumqayıt Kimya Sənaye Parkı"nın fəaliyyətə başlaması kimya sənayesinin inkişafına təkan vermişdir. Sənaye parkında "Azertexnolayn" MMC, "SOCAR Polymer" MMC, "AzerFloat" QSC, "SOCAR Karbamid Zavodu" "Bakı Tekstil Fabriki" MMC və s. kimi rezidentlərin fəaliyyət göstərməsi həm daxili tələbatın ödənilməsi, həm də ixrac imkanlarımızın genişləndirilməsində əhəmiyyətli dərəcədə təsirli olmuşdur.

Son illərdə Azərbaycanda ənənəvi ixrac məhsullarından asılılığı azaltmaq və ixrac imkanlarını genişləndirmək məqsədilə davamlı tədbirlər həyata keçrilmişdir. Qeyri-neft istehsalına xarici sərmayələrin cəlbi və qeyri-neft ixracının stimullaşdırılması məqsədilə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) yaradılmış, "Made in Azerbaijan" milli brendinin dünya ölkələrinə tanıdılması məqsədilə "Ticarət evləri" fəaliyyətə başlamış, ticari əlaqələrin genişləndirilməsi məqsədilə ixrac prosedurları sadələşdirilmişdir. Beynəlxalq keyfiyyət standartları və qaydalarına uyğun yüksək əlavə dəyərə malik milli məhsul istehsalının stimullaşdırılması, bu məhsulların ixrac coğrafiyasının genişləndirilməsi və qlobal bazarlara çıxış imkanlarının artırılması məqsədilə alternativ bazarların elektron xəritəsinin hazırlanması, ixracyönümlü sənayelərin dəstəklənməsi ilə ölkəmizin iqtisadi mürəkkəbliyinin artırılması, ənənəvi ixrac məhsullarından asılılığın aradan qaldırılması və xarici şoklara qarşı

həssaslığın azaldılmasına nail olmaq mümkündür (Verdiyeva, 2021: 36).

Cədvəl 2. məlumatlarına əsasən Türkdilli ölkələr arasında ən yüksək göstəriciyə malik ölkə Türkiyədir. İM indeksinə əsasən Türkiyənin ixrac səbəti orta mürəkkəbliyə malikdir. 2022-ci ildə ixracın həcmi 262 milyard dollar olan Türkiyənin ixrac səbətində nəqliyyat vasitələri və hissələri, qızıl və zərgərlik əşyaları, teksil sənayesi məhsulları, emal edilmiş neft məhsulları, məişət əşyaları və s. kimi orta mürəkkəbliyə malik məhsullar üstünlük təşkil etmişdir. Son 15 ildə Türkiyənin ixrac səbətinə 25 yeni məhsul əlavə olunmuşdur. 2021-ci ilin məlumatlarına əsasən bu yeni məhsulların hər biri adambaşına 46 dollara bərabər əlavə gəlir gətirmişdir (www.atlas.cid.harvard.edu). Türkiyənin, həmçinin dünya bazarına nəqliyyat və turizm sahəsi üzrə xidmət ixracı onun iqtisadi mürəkkbliyinə və qlobal ticarətdə dayanıqlığına təsir göstərən əsas faktorlardan hesab olunur. Qeyd etmək lazımdır ki, son illərdə Türkiyə hökuməti tərəfindən prioritet hesab edilən bir çox sahələrin, xüsusən də aerokosmik və avtomobil sənayesi, elektronika və tibbi cihazlar istehsalı sahələrinin, həmçinin biotexnologiya, nanotexnologiya və bərpa olunan enerji kimi sahələrin inkişafını dəstəkləmək məqsədilə startap layihələrinin və sahibkarlıq fəaliyyətinin inkişafına sərmayələr yatırılmışdır. Bu isə perspektivdə ixrac səbətinin diversifikasiyasında əhəmiyyətli dərəcədə təsirli olacaqdır.

Azərbaycan ilə Türkiyə arasında yüksək iqtisadi və ticari əməkdaşlıq mövcuddur. Azərbaycanın ən böyük ikinci ticarət tərəfdaşı Türkiyədir. 31 may 2020 – ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi", iki ölkə arasında ticari münasibətləri daha da stimullaşdırmışdır. Sazişə əsasən müəyyən mal qrupları üzrə tariflərin azaldılması, həmçinin bəzi tariflərin aradan qaldırılması ticarət münasibətlərinin bundan sonra daha da genişlənməsinə səbəb olacaqdır (www.e-qanun.az/framework/45319).

Türkiyənin Avropa, Asiya və Yaxın Şərq arasında yerləşən əlverişli coğrafi mövqeyi, onun tranzit mərkəzi kimi mühüm ticarət tərəfdaşına çevrilməsinə səbəb olmuşdur. Malik olduğu coğrafi üstünlük müxtəlif ixrac istiqamətlərinə çıxışı asanlaşdırmaqla, ixrac səbətini şaxələndirmək və ticari əlaqələrini genişləndirməyə imkan yaradır. Son illərdə Türkiyədə volatil valyuta, yüksək inflyasiya və büdcə kəsrinin mövcudluğu ölkə iqtisadiyyatında müəyyən çətinliklər yaratmışdır. Həmçinin Türkiyənin İMİ əsasında ixrac səbətinin təhlili göstərir ki, yüksək iqtisadi potensiala malik olmasına baxmayaraq, ölkədə iqtisadi mürəkkəbliyin yüksəldilməsində bir çox problemlər mövcuddur. Bu problemlərin aradan qaldırılması və ixracın diversifikasiyası üçün dövlət tərəfindən davamlı olaraq ixrac və innovasiya yönümlü investisiyanın təşviqi istiqamətində siyasət və institusional islahatların həyata keçirilməsi olduqca vacibdir.

İMİ indeksi üzrə 88 - ci sırada olan Qazaxıstan aşağı mürəkkəbliyə malikdir (bax: cədvəl 2). Lakin son 10 ilin reytinq göstəricilərini təhlil etdikdə məlum olur ki, Qazaxıstan İMİ sıralamasında 21 pillə irəliləmişdir. İxrac səbətində neft və neft məhsulları, təbii qaz, metallar, xüsusən də qızıl, dəmir və mis, kimyəvi maddələr və kənd təsərrüfatı məhsullarının üstünlük təşkil etdiyi Qazaxıstanda 2022 – ci ildə ixracın həcmi 98.7 milyard dollara bərabər olmuşdur. Son 15 ildə Qazaxıstan ixrac səbətinə 23 yeni məhsul əlavə etmişdir. Bu yeni məhsullara kətan toxumu, günəbaxan toxumu, paxlalılar, dəmir çubuqlar, dəmir və ya polad borular, dəmir yolu lokomotivlərinin hissələri və s. kimi kənd təsərrüfatı məhsulları, xammal və materiallar aiddir (www.atlas.cid.harvard.edu). Göründüyü kimi, Qazaxıstanın ixrac səbəti resurs yönümlüdür və yüksək texnoloji məhsullar məhdud xarakter daşıyır. Qazaxıstan iqtisadiyyatı enerji sektorundan daha çox asılıdır və ixracın strukturunda neft və neft məhsulları yüksək xüsusi çəkiyə malikdir. Qazaxıstanın ixrac səbətində ənənəvi olaraq mineral məhsullar üstünlük təşkil etsə də, iqtisadiyyatın şaxələndirilməsi ilə beynəlxalq ticarətin əsas tərəfdaşına çevrilməsi baxımından yüksək iqtisadi potensiala malikdir. Qeyri - neft sektoruna sərmayə yatırmaqla Qazaxıstan özünün iqtisadi potensialını tam açaraq, davamlı və dayanıqlı inkişafa nail ola bilər.

Son illərdə dövlət tərəfindən qeyri-resurs sahələrinin inkişafı və neft-qaz sektorundan asılılığın aradan qaldırılması məqsədilə davamlı tədbirlər həyata keçirilir. Ölkədə yüksək texnoloji məhsul istehsalının stimullaşdırılması məqsədilə yeni texnopark və innovasiya mərkəzləri yaradılır, həmçinin rəqəmsal infrastrukturun maliyyələşməsi davamlı olaraq dəstəklənir. Qazaxıstan iqtisadiyyatında resurs yönümlü artımdan resursqoruyucu və şaxələndirilmiş iqtisadiyyata keçidin sürətləndirilməsi məqsədilə bir çox sektorlar davamlı islahatların aparılması olduqca vacibdir.

İMİ sıralamasında Türkmənistan 103 – cü sırada qərarlaşmışdır (bax: cədvəl 2). 2022-ci ildə ölkədə ixracın həcmi 12.5 milyard dollara bərabər olmuşdur. İxrac strukturunun təhlili onu göstərir ki, ixrac səbətinin 69.3 % - ni neft - qaz məhsulları, 10.3 % -ni emal edilmiş neft yağları, 3.93 %-ni azot gübrələri və s. təşkil edir. Bu onu göstərir ki, ölkə ixracında mineral məhsullar üstünlük təşkil edir. Türkmənistan son 15 ildə ixrac səbətinə azot gübrələri, kükürd, pomidor, şüşə məmulatları, süni lif tullantıları və s. kimi məhdud sayda yeni məhsullar əlavə etmişdir (www.atlas.cid.harvard.edu).

Ötən illər ərzində Türkmənistanda iqtisadi artım bir istiqamətli olmaqla, neft – qaz sektoru hesabına baş vermişdir. Bir növ əmtəə qrupundan yüksək asılılığın olması, dünya bazarında neft və qaz məhsullarının qiymətinin dəyişməsi ilə ölkə iqtisadiyyatı üçün böyük risklər yarada bilir. Mərkəzi Asiyada əlverişli coğrafı mövqeyə sahib ölkə kimi Türkmənistan, ticarət, nəqliyyat və ümumilikdə iqtisadi əməkdaşlıq baxımından geniş imkanlara malikdir. Regional inteqrasiyanın gücləndirilməsi ölkənin yeni ixrac bazarlarına çıxış imkanlarını artıra bilər. Ölkənin dayanıqlı iqtisadi inkişafı üçün qeyri – neft – qaz sektorunun inkişafı vacibdir. İnnovasiya və sahibkarlığı təşviqinə yönəlmiş davamlı tədbirlərin həyata keçirilməsi və regional əməkdaşlığın gücləndirilməsi Türkmənistanın iqtisadi mürəkkəbliyinin artırılmasında əhəmiyyətli dərəcədə təsirli olar.

2021 – ci ilin məlumatlarına əsasən Qırğızıstan İMİ sıralamasında ən mürəkkəb 65-ci ölkədir . Son 10 ilin götəricilərinə əsasən ölkənin mürəkkəblik dərəcəsi 4 pillə artmışdır. 2022-ci ildə Qırğızıstanda ixracın həcmi 2.5 milyard dollar, idxal isə 21.3 milyard dollara bərabər olmaqla, ticarət kəsri yaranmışdır. Qırğızıstan iqtisadiyyatı resursyönümlüdür. Ölkənin əsas ixrac məhsulu olan qızıl, ixrac səbətinin 40 % - ini təşkil edir. Ümumilikdə, ölkənin ixrac səbəti qiymətli metallar, minerallar, kənd təsərrüfatı məhsulları və s. ibarət olmaqla məhdud müxtəlifliyə malikdir. İxrac səbətinin struktur təhlili onu göstərir ki, Qırğızıstan 2006-cı ildən etibarən 30 yeni məhsul ixracına başlamışdır. İxrac səbətinə çox sayda yeni məhsul əlavə olunsa da, bu məhsullar adambaşına 13 dollara bərabər aşağı gəlir gətirmişdir. Müqayisə üçün deyək ki, eyni ildə Cənubi Koreya ixrac səbətinə adambaşına 680 dollar gəlir gətirən 19 yeni məhsul əlavə etmişdir (www.atlas.cid.harvard.edu). Qırğızıstanın ixrac diversifikasiyasının aşağı gəlir gətirməsi istehsal həcminin və satış bazarlarında məhsulların rəqabət qabiliyyətinin aşağı olması, yeni bazarlara çıxışın məhdud olması kimi faktorlarla bağlı ola bilər. Bu baxımdan deyə bilərik ki, Qırğızıstan iqtisadiyyatının inkişaf strategiyası yalnız ixrac diversifikasiyasını deyil, həmçinin istehsal və ixrac həcminin genişləndirilməsini əhatə etməlidir. Qırğızıstanın qlobal bazarlara rəqabətqabiliyyətli məhsullarla çıxması üçün ixrac strategiyaları hazırlamaqla məqsədyönlü ixrac təşviqi kampaniyalarının həyata keçirilməsi vacibdir. Ölkənin İpək Yolu üzərində yerləşməsi iqtisadi mürəkkəbliyin artırılmasına geniş imkanlar yaradır. Belə ki, region ölkələri ilə ticarət inteqrasiyasının genişləndirilməsi Qırğızıstan məhsullarının alternativ bazarlara çıxışı artırmaqla iqtisadiyyatın şaxələndirilməsi və rəqabət qabiliyyətininin yüksəldilməsinə səbəb ola bilər.

Özbəkistan iqtisadiyyatı son illərdə müsbət istiqamətdə dəyişikliklərə məruz qalmışdır. Bu dəyişikliyin əsasında ixracın artımı dayanır. 2022 – ci ildə Özbəkistanda ixracın həcmi 16.9 milyard dollara, idxal isə 29.9 milyarda bərabər olmaqla ticarət defisiti yaranmışdır. Lakin 2023 – cü ilin statistik göstəricilərinə əsasən ixracın həcmi 23.8 % - ə artaraq 24.4 milyard dollara bərabər olmuşdur. Bu yüksək artım qızıl və tekstil məhsulları ixracı hesabına baş vermişdir .

Cədvəl 2. məlumatlarına əsasən Özbəkistan İMİ sıralamasında ən mürəkkəb 72-ci ölkədir. 2023-cü ildə ölkənin ixrac səbətinin 33.5% - ni qızıl, 3.9 %-ni mineral məhsullar, 16.6 % -ni sənaye (xüsusilə, tekstil sənayesi) məhsulları, 5.3 % -ni maşınqayırma və nəqliyyat vasitələri və s. təşkil etmişdir. Son 15 ildə ixrac səbətinə, adambaşına 24 dollar gəlir gətirən 50 adda yeni məhsul əlavə edilmişdir (www.stat.uz). İxrac səbətində şaxələnmə baş versə də, aşağı gəlir səviyyəsi məhsulların rəqabətqabiliyyətinin zəif olması əks etdirir. Özbəkistan qızıl, pambıq, kənd təsərrüfatı, mineral məhsullar kimi ənənəvi istehsal məhsullarından daha mürəkkəb, rəqabətqabliyyətli, yüksək əlavə dəyərə malik məhsul istehsalına keçməklə ixrac səbətini şaxələndirə bilər. Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq proqramı və Avrasiya İqtisadi İttifaqı kimi təşəbbüslərdən istifadə etməklə Özbəkistan regional iqtisadi əlaqələrini gücləndirə və ixrac bazarını genişləndirə bilər.

## NƏTİCƏ

Aparılan tədqiqatın əsas nəticəsi ondan ibarətdir ki, mürəkkəb ixrac səbəti yalnız ixracı stimullaşdırmır, həmçinin innovativ mal və xidmətlərin istehsalına təkan verməklə, ölkənin qlobal dəyər zəncirinin mühüm hissəsinə çevrilməsinə imkan yaradır. İMİ sıralamasına əsasən ixrac səbəti çoxşaxəli olan ölkələr, qlobal bazarlarda daha rəqabətli və dayanıqlı olurlar. Təhlil materialları onu göstərir ki, ötən illər ərzində Türkdilli ölkələr aşağı İMİ göstəricisi və məhdud iqtisadi mürəkkəbliyə malik olmuşlar. Bu ölkələrdə ixrac səbətinin diversifikasiyası və iqtisadi mürəkkəblik səviyyəsinin artırılması üçün aşağdakı tədbirlərin həyata keçirilməsi təklif olunur:

- İqtisadi inkişaf təşəbbüsləri ixrac səbətinin diversifikasiyası strategiyası ilə birlikdə aparılmaqla, ixracın kəmiyyət deyil, keyfiyyət artımına üstünlük verilməsi;
- Rəqəmsal transformasiyanı qəbul etməklə qabaqcıl texnologiyalara sərmaye qoyuluşunun stimullaşdırılması;
- İnvestisiya və sahibkarlığın inkişafını dəstəkləyən əlverişli rəqabət və biznes mühitinin yaradılması üçün sənədləşmə və lisenziyalaşdırma prosedurlarının sadələşdirilməsi;
- Regional və qlobal inteqrasiyanın gücləndirilməsi və ticarət maneələrinin aradan qaldırılması məqsədilə nəqliyyat, logistika və kommunikasiya infrastrukturunun təkmilləşdirilməsi;
- Türkdilli ölkələr arasında ticarət sazişlər və birgə müəssisələr vasitəsilə regional investisiya və əməkdaşlığın gücləndirilməsi;
- Ənənəvi bazarlardan asılılığın və iqtisadi dalğalanmalarla bağlı risklərin azaldılması məqsədilə alternativ bazarların elektron xəritəsinin hazırlanması;
- Yüksək iqtisadi dəyərə malik məhsul ixracatçılarının stimullaşdırılması və fəaliyyətinin dəstəklənməsi məqsədilə müvafiq agentliklərin yaradılması və s.

İxracın diversifikasiyası və iqtisadi mürəkkəbliyin artırılması ilə Türkdilli ölkələr qlobal çağırışlara cavab verə və dayanıqlı iqtisadi inkişafa nail ola bilərlər.

## ƏDƏBİYYAT

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişinin
təsdiq edilməsi" haqqında Azərbaycan Respublikasının qanunu. Azərbaycan Respublikası Prezidentinin 2020 – ci il 31 may Sərəncamı ilə təsdiq edilmişdir. www.e-qanun.az/framework/45319

Azərbaycanın xarici ticarəti (2023) // Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Statistik məcmuə.
– Bakı: Rəsmi nəşr, – 211 s.

Balassa, Bela (1978), Exports and economic growth. Futher evidence // – USA: Journal of Development
Economnics, – p. 181-189.
Foreign trade turnover of the Republic of Uzbekistan, (2023) // Statistics Agency Under the President of the
Republic of Uzbekistan, – 29 s. www.stat.uz/en/official-statistics/merchandise-trade
Hausmann, Ricardo (2007), "What you Export Matters" // R.Hausmann, J.Hwang, D.Rodrik. – Journal of
Economic Growth. Vol.12, No.1., – p. 1–25.
İxrac İcmalı (2024, yanvar) // Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya
Mərkəzi. – 26 s.
Verdiyeva, Pərvin (2021), Azərbaycanın ixrac səbətinin İqtisadi Mürəkkəblik İndeksi əsasında təhlili // – Bakı:
Statistika xəbərləri. №3, Cild 3. – s.34-40.
www.oec.world/en
www.atlas.cid.harvard.edu